# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN MİLLİ KİTABXANASININ BEYNƏLXALQ ƏLAQƏLƏRİ

**TAHİROV K.M.**
***M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar Mədəniyyət işçisi, professor***
***ktahirov@anl.az***

*Məqalədə Azərbaycan Milli Kitabxanasının son illərdə genişlənən beynəlxalq əlaqələrindən, o cümlədən Beynəlxalq Kitabxana təşkilatlarında təmsilçiliyindən, Beynəlxalq kitab mübadiləsi imkanlarından istifadədən, beynəlxalq kitab sərgilərində və elmi konfranslarda iştirakdan, habelə Bakıda beynəlxalq elmi konfransların, simpoziumların, treninqlərin keçirilməsindən və bu yolla Milli Kitabxananın beynəlxalq əlaqələrinin möhkəmlənməsindən bəhs edilir.*
***Açar sözlər:*** *Milli Kitabxana, beynəlxalq əlaqələr, elmi konfrans, Heydər Əliyev və kitabxana, İlham Əliyev və kitabxana*

Son 15 ildə həyata keçirilən uğurlu dövlət siyasəti sayəsində Azərbaycanın milli mənəvi dəyərlərinin mühafizəsi və təbliği istiqamətində əhəmiyyətli addımlar atılmış, ədəbiyyatımızın, tariximizin, maddi sərvətlərimizin ölkə hüdudlarından kənarda tanıdılması işləri xeyli gücləndirilmişdir. Azərbaycan dövlətinin, Heydər Əliyev Fondunun və onun Prezidenti, Birinci vitse Prezidentimiz Mehriban xanım Əliyevanın məqsədyönlü fəaliyyəti nəticəsində bu sahədə böyük uğurlar qazanılmışdır. Azərbaycan mədəniyyəti nümunələrinin YUNESKO-nun Qeyri-Maddi Mədəni irs siyahısına daxil edilməsi, xarici ölkələrdə keçirilən iri miqyaslı mədəniyyət tədbirləri, bir sıra ölkələrdə görkəmli mədəniyyət və ədəbiyyat xadimlərimizin yubileylərinin keçirilməsi, abidələrinin ucaldılması və digər tədbirlər Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda təbliğində əhəmiyyətli rol oynamışdır.

Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev cənablarının Azərbaycan həqiqətlərinin, ölkəmizin sürətli iqtisadı yüksəlişinin xaricdə təbliği ilə əlaqədar ölkəmizin ən vacib mənəviyyat mərkəzləri qarşısında qoyduğu vəzifələrə uyğun olaraq Azərbaycan Milli Kitabxanası da son illərdə milli mədəniyyətimizin, milli mənəvi dəyərlərimizin, ədəbiyyatımızın ölkə hüdudla-rından kənarda təbliğini gücləndirmək məqsədilə beynəlxalq əlaqələrini xeyli genişləndirmişdir. Milli Kitabxananın beynəlxalq əlaqələri bir neçə istiqamətdə inkişaf edir və burada əsas yeri dünya ölkələrinin milli kitabxanaları ilə qarşılıqlı əlaqələrin yaradılması tutur. Kitabxana son on beş il ərzində dünyanın 34 ölkəsinin milli kitabxanası ilə qarşılıqlı əməkdaşlığa dair müqavilələr imzalamışdır və onlar uğurla həyata keçirilir. Bu kitabxanaların sırasında uzaq Amerikanın, Asiyanın, Avropanın ən zəngin kitabxanaları – ABŞ-ın Kaliforniya Universitetinin Kitabxanası, Avstriya Milli Kitabxanası, Almaniyanın Frankfurtdakı Milli Kitabxanası, Çexiyanın, Rusiyanın, Belarusun, Macarıstanın, Slovakiyanın, Çinin, Qazaxıstanın, Özbəkistanın, İordaniyanın, Misirin, Latviyanın, İranın və digər ölkələrin milli kitabxanaları vardır. Qarşılıqlı əməkdaşlığa dair memorandumlarda beynəlxalq kitab mübadiləsi, informasiya resuslarının və mütəxəssislərin təcrübə mübadiləsi kimi məsələlər, sərgilərdə, elmi konfranslarda və simpoziumlarda, treninqlərdə iştirak, qarşılıqlı ezamiyyətlər və s. məsələlər öz əksini tapır.





YUNESKO-nun kitabxanalar arasında beynəlxalq kitab mübadiləsinin həyata keçirilməsinə dair 1959-cu ildə qəbul etdiyi Konvensiyaya müvafiq olaraq Milli Kitabxana dünyanın 64 ölkəsinin kitabxanası ilə qarşılıqlı beynəlxalq kitab mübadiləsini həyata keçirir və bu yolla son 15 il ərzində dünya kitabxanalarından alınmış və dünya kitabxanalarına göndərilmiş kitabların sayı xeyli artmışdır. Milli kitabxana bu yolla özünün əsas funksiyalarından birini – dünya ölkələrində Azərbaycana dair çap olunan kitabların və Azərbaycan müəlliflərinin dərc olunan bütün əsərlərinin toplanması işlərini uğurla həyata keçirir. Bugünədək kitabxana bu yolla xarici ölkə kitabxanalarından 700 min nüsxəyədək kitab və digər nəşrlər almışdır. Eyni zamanda Milli Kitabxana dünya kitabxanalarına Azərbaycanın mədəniyyətinə, iqtisadiyyatına və iqtisadi uğurlarına, tarixinə, coğrafiyasına, ədəbiyyatına, ayrı-ayrı yazıçı və şairlərinə dair 1 milyon nüsxəyədək ədəbiyyat göndərmişdir.

Milli Kitabxananın beynəlxalq əlaqələrinin gücləndirilməsində Bakıda keçirilən Beynəlxalq kitab sərgilərinin və Milli Kitabxananın hər il böyük uğurla təmsil olunduğu beynəlxalq kitab sərgilərinin də böyük əhəmiyyəti vardır. 2009-cu ildən hər iki ildən bir keçirilən Bakı Beynəlxalq Kitab sərgisində hər il 10-dan artıq milli kitabxana iştirak edir və bu kitabxanalar sərginin sonunda ekspozisiyalarında nümayiş etdirdikləri kitabları Azərbaycan Milli Kitabxanasına hədiyyə verirlər. Ötən il ölkəmizdə artıq V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçirilmişdir və bu sərgilər zamanı kitabxanaya bütövlükdə 6 min nüsxədən çox kitab hədiyyə olunmuşdur.

Şərgilərin digər bir özəlliyi də ondadır ki, həmin tədbir çərçivəsində beynəlxalq sərgidə iştirak edən bir ölkə kitabxanasının fondlarında mühafizə olunan Azərbaycanla bağlı qiymətli materialların və əlyazmaların sərgiləri də təşkil olunur və sonda həmin materialların surətləri və elektron versiyaları disklərə yazılaraq Milli Kitabxanaya bağışlanır. 2009-cu ildən indiyədək Rusiya, Estoniya, Çexiya milli kitabxanalarının və B.Yeltsen adına Sankt- Peterburq Prezident Kitabxanasının fondlarından sərgilər təşkil olunmuş və sonda Azərbaycana dair qiymətli sənədlərin, əlyazmaların, xəritələrin surətləri Milli Kitabxanaya hədiyyə olunmuşdur. Bu yolla indiyədək dahi Nizami Gəncəvi-

nin "Xəmsə"sinin XVI əsrə aid nadir əlyazmsının, XIX əsrə aid Azərbaycanın xəritəsinin, respublikamızın tarixi ilə bağlı digər qiymətli sənədlərin surətləri ölkəmizə gətirilmişdir.

Azərbaycan Milli Kitabxanası 10 ildən artıqdır ki, hər il Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə xarici ölkələrdə keçirilən 10-12 beynəlxalq kitab sərgilərində iştirak edir. Kitabxana Frankfurt, London, Turin, Moskva, Tehran, Təbriz, Budapeşt, Praqa və digər şəhərlərdə keçirilən ənənəvi sərgilərdə ölkəmizi uğurla təmsil etmişdir. Bu sərgilərdəki ekspozisiyalarda nümayiş olunan ədəbiyyat sonda ya həmin ölkədəki səfirliyimizə və universitetlərə, ya da həmin ölkələrin milli kitabxanalarına hədiyyə olunur. Kitabların bir hissəsi isə sərginin bağlanışı günü sərgi iştirakçılarına da paylanır. Bütün bunlar Azərbaycanın mədəniyyətinin, tarixinin, ədəbiyyatının, Azərbaycan reallıqlarının təbliği yolunda atılan əməli addım hesab oluna bilər.

Azərbaycan Milli Kitabxanasının beynəlxalq əlaqələrindən danışarkən ilk növbədə bir sıra beynəlxalq təşkilatlarla birlikdə xarici ölkələrdə keçirilən tədbirlərdən danışmaq lazımdır. Bu sırada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı-TÜRKSOY-la birlikdə bütün türkdilli ölkələrdə keçirilən tədbirləri xüsusilə qeyd etməliyik. 10 ildən artıqdır ki, Azərbaycan Milli Kitabxanasının TÜRKSOY-la birlikdə türk dünyasının görkəmli xadimlərinin xatirəsinin əbədiləşdirilməsi məqsədilə həm Azərbaycanın və həm də digər türkdilli ölkələrin ədəbiyyat və mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi bir ənənə halını almışdır. Nizami Gəncəvinin, M.P.Vaqifin, M.F.Axundzadənin, Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Səməd Vurğunun, Bəxtiyar Vahabzadənin, İlyas Əfəndiyevin, türk dünyasının görkəmli nümayəndələrindən Yunus Əmrənin, Abdulla Tukayın, Məxtumqulu Fəraqinin, Has Balasaqunlunun, Mahmud Qaşqarinin, Zəki Validinin, Qaysın Quliyevin və başqalarının yubileyləri həm Bakıda, həm də Ankarada və İstanbulda, Astanada və Türkstanda, Bişkekdə və İssıkkulda, Daşkənddə və Aşqabatda, Ufada və Kazanda, digər şəhərlərdə müvəffəqiyyətlə keçirilmişdir. Bütün bu yubileylər müvafiq kitab və foto sərgilərlə, kitab təqdimatları, şeir gecələri, elmi konfranslarla və digər tədbirlərlə müşaiyət olunmuşdur. Bu tədbirlər çərçivəsində "TÜRKSOY Kitabxanası" seriyasından Bəxtiyar Vahabzadənin, Molla Pənah Vaqifin, Məxtimqulu Fəraqinin, Yunus Əmrənin, Zəki Validinin, Has Hacib Balasaqunlunun və digərlərinin əsərlərindən ibarət kitabların nəşr olunaraq təqdimatlarının keçirilməsi də bir ənənəyə çevrilmişdir. 2017-ci ilin sonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına müvafiq olaraq görkəmli Azərbaycan şairi M.P.Vaqifin 300 illik yubileyi TÜRKSOY-la birlikdə Ankarada, İstanbulda, Sakaryada, Astanada, Türküstanda böyük uğurla keçirilmişdir.





Azərbaycan Milli Kitabxanası Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə xarici ölkələrdə keçirilən beynəlxalq kitab sərgilərində də Respublikamızın ictimai-mədəni həyatı ilə bağlı müxtəlif tədbirlər keçirməklə Azərbaycan həqiqətlərinin dünya miqyasında təbliğində də yaxından iştirak edir. Frankfurt, İstanbul, Turin, Moskva və digər şəhərlərdə keçirilən ənənəvi beynəlxalq kitab sərgiləri çərçivəsində almanların Cənubi Qafqazda məskunlaşmasının 200 illiyinə, M.P.Vaqifin 300 illiyinə, S.Vurğunun 100 illiyinə, B.Vahabzadənin 90 illiyinə, İ.Əfəndiyevin 100 illiyinə, dünya şöhrətli bəstəkar Qara Qarayevin 100 illiyinə, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirlər və digər tədbirlər buna əyani misal ola bilər.

Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev cənablarının sərəncamı ilə 2019-cu il böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə "Nəsimi ili" elan olunmuşdur. Bu ilin martında "Nəsimi ili"-nin açılışı Türkiyənin Ankara şəhərində TÜRKSOY-un iqamətgahında və İstanbulda Türk Ədəbiyyatı Vəqfində həmin yubileyə həsr olunmuş tədbirlər çox böyük uğurla keçmişdir. Həmin tədbirlər il ərzində Qırğızıstanın paytaxtı Bişkek şəhərində və Macarıstanın paytaxtı Budapeştdə də müvəffəqiyyətlə keçirilmişdir.

Son illərdə innovasiyaların milli kitabxanaların təcrübəsinə tətbiqi, oxuculara informasiya xidmətinin kreativ metodlar əsasında aparılması, milli kitabxanaların sosial-mədəni və modern təbliğat funksiyalarına həsr olunmuş beynəlxalq elmi konfransların təşkili Milli Kitabxanada artıq ənənə halını almışdır. 2013-cü ildən bəri hər il keçirilən bu konfranslarda dünyanın ABŞ, İngiltərə, Avstriya, Çexiya, Latviya, Misir, Qətər, Rusiya, Türkiyə və digər müsbət təcrübəyə malik olan kitabxanalarının rəhbərləri və mütəxəssisləri məruzələrlə çıxışlar etmiş və öz təcrübələri ilə bölüşmüşlər. Bu ilk keçiriləcək beynəlxaq elmi konfrans "Kitabxanalar – mobil informasiya mərkəzləri kimi" mövzusuna həsr olunmuşdur və sentyabr ayında keçirilməsi planlaşdırılır. Bu konfranslara gələn qonaqlar həmçinin Azərbaycan Milli Kitabxanasının müsbət və kreativ xarakterli iş təcrübəsi ilə də yaxından tanış olurlar və ondan bəhrələnirlər.

Milli Kitabxananın beynəlxalq əlaqələrinin ən əyani nümunələrindən biri də onun professional beynəlxalq təşkilatlarda təmsil olunması və iştirakıdır. Milli Kitabxana 2003-cü ildən Avrasiya Kitabxanalar Assambleyasının – BAE-nın, üzvü və 5 təsisçisindən biridir. Həmçinin Milli Kitabxana 1998-ci ildən Beynəlxalq Kitabxana Təşkilatları və Assosiasiyaları təşkilatının – İFLA-nın, 2005-ci ildən Avropa Milli Kitabxanaları Konfransı Təşkilatının – CENL-ın üzvüdür, 1992-ci ildən Türkdilli Ölkələrin Milli Kitabxanaları Birliyinin və 2009-cu ildən İƏT Üzvü Olan Ölkələrin Milli Kitabxanaları Birliyinin üzvü və yaradıcılarından biridir. Milli Kitabxana bu beynəlxalq təşkilatla-

rın müxtəlif ölkələrdə keçirilən illik toplantılarında və konfranslarında mütəmadi olaraq iştirak etməklə yanaşı, bu tədbirlərin təşkilatçısı və ev yiyəsi qismində də çıxış edir. CENL-in, BAE-nin, İTƏ-nin üzvü olan və Türkdilli ölkələrin milli kitabxanalarının növbəti toplantıları Bakıda böyük uğurla keçirilmişdir. 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına müvafiq olaraq Milli Kitabxananın 90 illik yubileyi bu beynəlxalq təşkilatların təmsilçisi olan 60-dan artıq dünya milli kitabxanaları rəhbərlərinin iştirakı ilə böyük uğurla keçirilmişdir.

Azərbaycan Milli Kitabxanasının əməkdaşları kitabxana işinin bu və ya digər məsələlərinə dair dünya ölkələrində keçirilən beynəlxalq elmi konfranslarda və simpoziumlarda, treninqlərdə və digər tədbirlərdə də mütəmadi olaraq maraqlı elmi məruzələrlə və təqdimatlarla çıxışlar edirlər. Milli Kitabxana belə tədbirlərin təşkilatçısı kimi də çıxış edərək dünya kitabxanalarının mü-təxəssislərini Bakıda toplayır. Son illərdə innovasiyaların kitabxana işinə tətbiqinə, kitab və mütaliənin kütləviləşdirilməsində innovativ iş metodlarından istifadə və bu kimi digər mövzularda kitabxana keçirdiyi beynəlxalq elmi konfranslarda 10-larla dünya milli kitabxanalarının mütəxəssisləri elmi məruzələrlə çıxış etmişlər.

Kitabxananın beynəlxalq əlaqələrində mütəxəssislərin təcrübə müba-diləsinin və stajirovkaların təşkili də əhəmiyyətli rol oynayır. Son illər ərzində mütəmadi olaraq Türkiyənin, Rusiyanın, Belorusun, Slovakiyanın, Qazaxıstanın, Fransanın, Avstriyanın, İranın, ABŞ-ın, Gürcüstanın, Qətərin, Misirin və digər ölkələrin milli kitabxanalarında təcrübə mübadiləsi keçmişlər və yaxud həmin kitabxanaların mütəxəssisləri Milli kitabxanada təcrübə mübadiləsi keçmişlər.

Azərbaycan Milli Kitabxanası bir vaxtlar Azərbaycandan xarici ölkələrə aparılmış və hazırda dünya kitabxanalarının fondlarında mühafizə olunan mədəniyyət sərvətlərimizin digital surətlərinin ölkəmizə qaytarılması istiqamətində ciddi işlər aparır. Artıq bu il ərzində görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin dünya kitabxanalarında saxlanılan əlyazmalarının digital surətlərinin Azərbaycana gətirilməsinə nail olmaq nəzərdə tutulmuşdur və gələn illərdə də bu işlər davam etdiriləcəkdir.

## ƏDƏBİYYAT

1. *Xələfov A. M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası 90 il elm və mədəniyyətin xidmətində ; red. K. Aslan ;B., Bakı Universiteti nəşriyyatı, 2013,61s.*

2. *Tahirov K. Dünya kitabxanaları: M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası. B., 2013, 211s.*

3. *Tahirov K. Milli Kitabxananın beynəlxalq əlaqələri genişlənir- "Xalq qəzeti", 2010, 3 noyabr, s.6.*





4. *Tahirov, K. Müasir dövrdə kitabxanalar üçün yeni çağırışların, yeni ideyaların və yeni tələblərin əsas istiqamətləri //Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri ("Kitabxanalar üçün yeni çağırışlar, yeni ideyalar, yeni tələblər: kitab, mütaliə, innovasiyalar" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 29 sentyabr 2017-ci il).-B., 2017.- Buraxılış 9.-S.10-16*

5. *M.F.Axundov ad. Milli Kitabxananın hesabatları, 2006 – 2018-ci illər.*

## МЕЖДУНАРОДНЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

ТАХИРОВ К.

### *РЕЗЮМЕ*

*В статье говорится о постоянно расширяющихся международных связях Азербайджанской Национальной Библиотеки за последние годы, о ее представительстве в международных библиотечных организациях, о всестороннем использовании возможностей международного книгообмена, участии в международных книжных выставках и научных конференциях, в частности, о проведении в Баку международных научных конференций, симпозиумов, тренингов, и в целом, об упрочении международных связей Национальной Библиотеки.*

***Ключевые слова:*** *Национальная Библиотека, международные связи, научные конференции, Гейдар Алиев и библиотека, Ильхам Алиев и библиотека и др.*

## INTERNATIONAL RELATIONS OF AZERBAIJAN NATIONAL LIBRARY DURING THE YEARS OF INDEPENDENCE

TAHIROV K.M.

### *SUMMARY*

*The article provides information about the international relations of Azerbaijan National Library, which has been expanding in recent years, as well as its representation in International Library organizations.It also gives information about international book exchange opportunities, participation in international book exhibitions and scientific conferences,scientific practical conferences, symposiums and trainings held in Baku, and strengthening the international relations of the National Library in this way.*

***Keywords:*** *National Library, international relations, scientific conference, Heydar Aliyev and library, Ilham Aliyev and library and etc.*